UOT 94 (479.24)

# IX-XII ƏSR ƏRƏB COĞRAFİYAŞÜNAS SƏYYAHLARIN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN KƏNDLƏRİ

**M.C.BAYRAMOV**
***Lənkəran Dövlət Universiteti***
***mushfiq76@mail ru***

*Məqalədə IX-XII əsr ərəb coğrafiyaşünas səyyahlarının əsərlərində Azərbaycan kəndləri haqqında məlumatlar toplanaraq təhlil olunmuş, orta əsr Azərbaycan kəndlərinin topoqrafiyası, əhalisinin təssərrufat məşğuliyyəti, məişəti və dini görüşlərinə dair nəticələr çıxarılmışdır. Ərəb coğrafiyaşünaslarının məlumatları lakonik, qeyri-ardıcıl olsa da, bütövlükdə orta əsr Azərbaycan kəndlərinin öyrənilməsi baxımından böyük elmi əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** Azərbaycan, orta əsr, kənd məskəni, kənd əhalisi, ərəbdilli mənbələr

Azərbaycan ərazisi qədim mədəniyyət ocaqlarından biri olduğundan qədim dövrlərdən başlayaraq coğrafiyaçıların, səyyahların, tarixçilərin diqqətini özünə cəlb etmişdir.

Ərəb müəlliflərinin əsərlərində VII əsrdən başlayaraq Azərbaycanda baş verən hadisələrə dair məlumatlar şərh olunur. Orta əsr ərəb müəlliflərindən İbn Xordadbeh, İbn əl-Fəqih əl-Həmədani, İbn Rusta, Qudama ibn Cəfər, əl-Məsudi, Əbu Düləf, əl-İstəxri, Əbu Həmid əl-Əndəlusi əl-Qərnati, İbn Havqəl, əl-Müqəddəsi, Yaqut əl-Həməvi və başqaları Azərbaycanın IX-XII əsrlərdəki sərhədləri, karvan yolları, şəhərləri, kəndləri, qalaları, təsərrufat həyatı, burada baş verən tarixi proseslər haqqında olduqca qiymətli məlumatlar vermişlər (1, 4).

IX əsrdə yaşamış, əsəri bizə gəlib çatan ilk ərəb coğrafiyaşünas səyyahı İbn Xordadbeh olmuşdur. İbn Xordadbehin "Kitab əl-məmalik və-l-məsalik" ("Yollar və məmləkətlər haqqında kitab") Azərbaycanın, ümumiyyətlə, Qafqazın tarixi və tarixi coğrafiyası üçün çox mühüm mənbələrdən biridir. Əsərin əsas hissəsi yollar və marşrutlar, bu yollar üstündəki şəhər və kəndlər, ölkənin iqtisadiyyatı, o cümlədən kənd təsərrufatı, siyasi quruluşu, vergi sistemi və s. haqqındadır. Azərbaycanı İbn Xordadbeh əl-Cəbri (Şimal ölkələri) ölkəsinə daxil edir. İbn Xordadbeh Azərbaycan şəhər və rustaqları bölməsində aşağıdakı rustaqların adlarını çəkir: Bacərəvan, əs-Sılaq, Sindəbaya, əl-Bəzz, Urm, Bəlvankərc, Sərat, Dəskiyavər, Məyənhərc rustaqı (1, 17).

IX əsr ərəb coğrafiyaşünası İbn əl-Fəqih əl-Həmədani özünün "Kitab əl-buldan" ("Ölkələrin kitabı") əsərində Azərbaycanın sərhədləri, ərəblər tərəfindən işğalı, şəhərləri, kəndləri və Azərbaycan xalqının ərəb xilafətinə ödədiyi xəracın miqdarı haqqında məlumat verir. Ibn əl-Fəqih Azərbaycanın şimal hissəsində-Arranda 4000 kənd olduğunu yazır (2, 261).

"Kitab əl-buldan" əsərində Azərbaycan ərazisində aşağıdakı kənd yaşayış yerlərinin adlarını çəkir:

"Bərzənd-kənd idi. Əl-Afşin Babəklə vuruşduğu günlər burada düşərgə salmış, möhkəmləndirmiş və abad etdirmişdir. Neriz-kənddir. Onun xaraba və qədim bir qəsri var. Burada Murr ibn əl-Mövsili ət-Tai uşaqları ilə məskən salmışdır. Onlar buranı Azərbaycan valisinin himayəsi altında idarə edirlər" (1, 36-37).

X əsr ərəb coğrafiyaşünas səyyahı Əbu Düləf "Risalə"sində gəzdiyi ölkələrin, o cümlədən Azərbaycanın faydalı qazıntıları, şəhər və kəndləri, çayları, gölləri, dağları və s. haqqında çox qiymətli məlumat verir. Azərbaycan haqqında məlumat Şiz şəhərindən başlayır. Müəllif Balasakan düzündə beş min xaraba kənd olduğunu qeyd edərək yazır "Varsan və əl-Beyləqan şəhərləri Balasakan düzündə yerləşir. Bu düzdə beş min və ya daha çox xaraba kənd var. Halbuki onların evlərinin divarları və binalarının bəzilərinin özülü dağılmamışdır. Deyirlər ki, həmin kəndlər allah-taalanın "Quranda" zikr etdiyi ar-Rasın sahiblərinin olmuşdur" (1, 80).

X əsr ərəb coğrafiyaşünas səyyahlarından biri "Kitab əl-Masalik vəl-məmalik" ("Yollar və məmləkətlər haqqında kitab") əsərin müəllifi əl-Farisi əl-İstəxri də Azərbaycan, burada olan yaşayış yerləri, şəhər və kəndləri barəsində məlumat verir. Müəllifin Urmiya gölünün ətrafında məntəqələrinin, kənd və rustaqlar haqqında məlumatı xüsusilə diqqətəlayiqdir ( 1, 90).

X əsrin ərəb coğrafiyaşünas alimi, əl-İstəxrinin davamçısı İbn Havqəlin "Kitab əl-masalik vəl-məmalik" ("Yollar və məmləkətlər haqqında kitab") əsərində Azərbaycanın yaşayış məskənlərinə dair qiymətli məlumat vardır. Marağa şəhərindən bəhs edərkən müəllif yazır: "əl-Marağa sağlam havalı şəhərdir. Çoxlu rustaq və otlaqları var. Buranın yaşayış yerlərinin birində "azdaqriy" adlanan qovun yetişir. Bu uzunsov, qabığı bozumtul-yaşıl, içərisi isə qırmızıdır. İçi baldan şirindir Xorasan qovununa oxşayır" (1, 107).

İbn Havqəl daha sonra Urmiya şəhəri haqqında məlumat verərkən bu şəhərin də çoxlu əkin sahələri və rustaqları olduğunu bildirir. İbn Havqəlin verdiyi məlumatdan orta əsrlərdə kənd təsərrufatının müxtəlif sahələrinin inkişaf etdiyi və əkinçilikdə dənli bitki istehsalı ilə yanaşı kənd əhalisinin tərəvəz və bostan bitkilərinin bir çox növlərini becərdiyi aydın olur. Orta əsr ərəbdilli mənbələrə istinad edərək M.X.Şərifli kənd əhalisinin qovun, qarpız, xiyar, kələm, badımcan, kahı, lobya, kudu, və müxtəlif növ səbzə yetişdirdiyini yazır. Əsas bostan bitkilərindən birinin qovun olduğunu diqqətə çatdıran müəllif qovunun "məcdəddin", "məliki", "yaquti", "əzdəhri" növlərinin adlarını çəkir (2, 265).

Aparılmş arxeoloji qazıntı işləri nəticəsində əldə olunmuş nəbati qalıqları eləcədə yazılı mənbə məlumatlarının təsdiqi təsərrufat həyatında bostançılığın mühüm yer tutduğunu təsdiq edir (3, 62). Gəncə ərazisində qazıntılar zamanı aşkar edilmiş bitki qalıqları içərisində balqabaq, xiyar, yemiş, qarpız və başqa bostan bitkilərinin toxumları da vardı (4, 104).

Azərbaycan kəndləri haqqıda məlumata X əsr müəllifi əl-Müqəddəsinin əsərlərində də rast gəlirik. O, uzun səyahətdən sonra "Əhsən ət-təqasim fi mərifət əl-əqalim" ("İqlimlərin öyrənilməsi üçün ən yaxşı bölgü") əsərini yazmışdır. "Əhsən ət-təqasim fi mərifət əl-əqalim" əsərində Ərdəbil haqqında məlumat verərək yazır: "Ərdəbil-Azərbaycanın paytaxtı və bütün iqlimin şəhəridir. Onun alınmaz qalası var. Buradakı dağın uzunluğu 140 fərsəxdir. Bu yerlər başdan-başa kənd və əkin sahələridir. Deyirlər ki, buradakı kəndlərdə 60 dildə danışırlar. Ərdəbilə bir çox şeylər buradan gətirilir. Onların evlərinin çoxu yerin altındadır" (1, 130). Daha sonra müəllif Ərdəbil rustaqlarında əhalinin təsərrufat həyatindan bəhs edərək yazır "Ərdəbil rustaqlarında yeri 8 öküz vasitəsilə 4 cütcü sürür, iki öküzü bir cütçü sürür. Mən onlardan soruşdum "Belə şum yerin bərkliyindəndirmi?" Onlar cavab verdilər. "Xeyir, bu qardan ötrüdür" (1, 136). Əl-Müqəddəsinin məlumatı kənd əhalisinin o dövrün şum əmək alətləri barəsində fikir söyləməyə əsas verir. Bəlli olur ki, IX əsrdə kənd əhalisi qara kotan və ya ağır kotan adlanan şum alətindən istifadə edirdi. VIII-IX əsrlərin ən təkmil şum aləti olan qara kotan Qafqazın bir çox xalqlarına məlum idi. Qara kotan Azərbaycanda şumlamada istifadə olunan alətlər içərisində yeganə əmək alətidir ki, ona 4 cütdən 12 cütədək qoşqu heyvanı qoşulmuşdur. Xeyli qoşqu quvvəsi tələb edən bu şum alətinə ağır kotan da deyilirdi (3, 22). Qara kotanı iki və ya daha çox qoşqu heyvanına bağlayır və hər iki öküzü bir cütçü sürürdü. Bu daha təkmil şum aləti olduğundan kəndlilərə yeri daha dərindən şumlamaq imkanı verirdi. Bütün bunlar orta əsrlərdə kənd əhalisinin təsərrufatda daha təkmil əmək alətlərindən istifadə etdiyini göstətir.

X əsr tarixçi-coğrafiyaşünası əl-Məsudi "Muruc əz-zəhəb və məadin əl-cavhar" ("Qızıl yuyulan yer və cavahirat mədənləri") əsərində əl-Bab əl-Əbvab və bu şəhər ətrafında ölkə və xalqlar haqqında olan fəslində Azərbaycanın orta əsrlər tarixinə dair maraqlı məlumat əldə edirik. Müəllifin Zirehgiran kəndi haqqındakı məlumatı orta əsr kəndlərinin öyrənilməsi baxımından qiymətlidir. Əsərdə müəllif "Zirehgiran" kəndi haqqında yazır: "Qumik torpağından sonra Zirehgeran torpağı (kəndi) gəlir. Bu isə zireh ustaları deməkdir. Belə ki onlar zireh, yəhər, qılınc yüyən və s. ustaları kimi məhşurdurlar. Onların arasında müsəlmanlar, xristanlar, yəhudilər yaşıyırlar" (1, 59).

Əl-Məsudinin Zirehgiran kəndi haqqındakı məlumatından IX-X əsrlərdə sənətkarlığın təkcə şəhərlərdə deyil kəndlərdə də inkişaf etdiyi, kənd əhalisinin dəmir və müxtəlif növ filizlərdən məişət avadanlıqları, əmək alətləri, silah nümünələri hazırladiğı aydın olur. Müəllif Qəbələ şəhəri haqqında məlumatında şəhər əhalisinin müsəlman, ətraf kənd və qəsəbələrin əhalisinin xristian oldu-

ğunu qeyd edir (1, 61). Buradan da müsəlmanlığın kəndlərə nisbətən şəhərlərdə sürətlə yayıldığını, kəndlərdə isə xrisrtanlığın və köhnə dinlərə sitayişin hələ də möhkəm olduğu aydınlaşır.

Azərbaycanın kənd məskənləri haqqında məlumat verən XII əsr ərəb coğrafiyaşunas səyyahlarından biri Əbu Həmid əl-Əndəlusi əl-Qərnatidir. Özünün "Tuhfət əl-əlbab və nuxbat əl-əcab" ("Ağıllara töhfə və möcüzələrin seçilməsi") əsəri Azərbaycan xalqının tarixi, adət-ənənələri, şəhərləri, kəndləri, ümumiyyətlə, Qafqaz xalqlarının tarixinin öyrənlməsi baxımından qiymətlidir. Əl-Qərnati "Tuhfət əl-əlbab və nuxbat əl-əcab" əsərinin "müxtəlif ölkələrdəki möcüzələr və təccüblü şeylər haqqında" olan ikinci fəslində Dərbənd yaxınlığında iki kənd haqqında məlumat verir ki, bu kənlərdən də biri əl-Məsudinin, haqqında məlumat verdiyi Zirehgiran kəndidir. Əl-Qərnati bu kəndin adını Zəryəgəran kimi qeyd edir və yazır "Dərbənd yaxınlığında böyük bir dağın ətəyində iki kənd vardır. Burada yaşayan adamlara Zəryagəran, yəni zireh ustaları deyilir. Onlar müharibədə istifadə etmək üçün lazım olan bütün zirehlərdən: dəbilqə, qılınc, nizə, yay, ox, xəncər qayırırlar. Onların qadın, uşaq, qız, qul və kənizləri bu sənəti bütünlüklə öyrənirlər. Burada yaşayanların əkilən torpaq və bağları yoxdur, əksəriyyəti xeyirxah və dövlətli adamlardır. Başqa yerlərdən olan adamlar hər tərəfdən onlara satmaq üçün müxtəlif nemətlər (mallar) gətirirlər" (1, 159)

Əbu Həmid əl-Əndəlusi əl-Qərnatinin bu kəndlərdə yaşayan əhalinin dini görüşləri və dəfn adətlərinə aid məlumatları böyük əhəmiyyət kəsb edir. Həmin kəndlərdə yaşayan əhalinin dini görüşləri haqqında müəllif yazır: "Onların dini yoxdur və cizyə vermirlər. Həmin adamlardan biri öldükdə, ölən adam kişidirsə, meyiti yerin altında yaşayan adamlara verir, həmin adamlar da meyitin əzalarını doğrayır, nəticədə yalnız ətindən ayrılmış sümüklər və beyin qalır. Ölünün ətini yığır və qara qarğalara yedirirlər. Onlar (həmin adamlar) soyuqqanlıqla (meyitin ardınca) gedir və başqa quşlara ölünün ətindən yeməyə mane olurlar. Əgər ölən adam qadındırsa, meyiti yenə yerin altında yaşayan adamlara göndərir, həmin adamlar da onun sümüklərini ayırır, ətini quzğunlara yedirir, onun (meyitin ardınca) oxlarla gedir və ətinə yaxın düşmək istəyən hər kəsə mane olurlar. Mən Dərbənddə əl-Əmir Əbd əl-Məlik ibn Əbu Bəkrə dedim "Necə olub ki, bu millət islamı qəbul etməyib?". O dedi "Onların sehri var. Bizim qoşun o kəndə yollandı. Mən o kəndə ilk girənlərdən oldum. Bu vaxt yerin altından adamlar çıxdılar. Onların üstündə silah yox idi. Onlar dayandılar, əlləri ilə dağlara işarə etdilər və mənim başa düşmədiyim dildə danışmağa başladılar. Sonra yerin altında yox oldular. Bundan sonra bizi soyuq külək və bərk qar tutdu, belə ki, gözlərimiz heç bir şey görmədi. Biz qoşunumuzdan çoxlu adam itirdik. Biz həmin kəndlərdə yaşayanlardan bir parça çörək belə ala bilmədik. Bu isə həmin adamların yalnız sehirkarlığından ola bilərdi. Bu adamlar ölünün sümüklərini çıxarır və bu sümükləri kisələrə doldururlar. Dövlətlilərin və məhşur adamların kisələri zərli rum ipəyindən, qul və

kənizlərinki isə çit və başqa bu kimi şeylərdən olur. Onlar kisələri evdə asır, hər bir kisənin üstündə sahibinin adını yazırlar. Bu isə çox qəribə işdir (1, 161).

Əbu Həmid əl-Əndəlusi əl-Qərnatinin Azərbaycan orta əsr kəndləri haqqında məlumatı bir də ona görə qiymətlidir ki, biz burada başqa müəlliflərin əsərlərində rast gəlmədiyimiz məlumata rast gəlirik. Belə ki, müəllifin əsərində kənd əhlisinin təsərrufatı, dini görüşləri və dəfn mərasimləri haqqında məlumatlar əldə edirik. Əl-Qərnatinin məlumatından görünür ki, orta əsr kənd məskənlərində qədim adət ən-ənələrə sədaqət, köhnə dinlərə sitayiş əhali arasında öz varlığını saxlayırdı. Müəllifin haqqında bəhs etdiyi kəndlərin əhalisinin də müsəlmanlığı qəbul etmədiyini, atəşpərəst olduqlarını onların dəfn mərasimləri barəsində verdiyi məlumatdan izləmək olur.

XII əsrin sonu-XIII əsrin əvvəllərində yaşamış görkəmli ərəb ensiklopedist alimi səyyahı Yaqut əl-Həməvinin əsərləri Azərbaycanın monqollara qədərki və sonrakı dövrün iqtisadi, mədəni həyatı, eləcə də dövrün tarixi coğrafiyasını tədqiq etmək baxımından olduqca əhəmiyyətlidir .

"Mucəm əl- buldən" əsərində müəllif ayrı-ayrı ölkələr və bu ölkəlrdə olan dağ, düz, dərələrin, qəsəbələrin, çayların, göllərin və s. haqqında məlumat verir. Yaqut əl-Həməvinin əsərlərində Azərbaycanın kəndləri haqqında nisbətən geniş məlumata rast gəlirik.

Azərbaycan şəhərlərini, kəndlərini Yaqut aşağıdakı terminlərlə ifadə edir. "Mərkəz", əsas şəhər mənasını verən "kasaba", ümumiyyətlə, şəhər anlayışını ifadə edən "mədinə", "bələd", "buleydə", həmçinin yer mənasını verən "mavdi" və "sakun". Yaqut Azərbaycanda olan kənd yaşayış məskənlərini isə "qarya" kimi xarakterizə edir (5, 67).

Azərbaycan şəhərləri haqqında məlumat verərkən Yaqut əl-Həməvi Bacəravanı Bab əl-Əbvab nahiyəsində, Şərvan yaxınlığında şəhər və Xızır peyğəmbər tərəfindən tapılan "həyat bulağının" burada olduğunu qeyd edir. Daha sonra müəllif yazır: "Bəziləri deyir ki, Bacərvan kənddir və bu həmin kənddir ki, sakinləri Musa və Xızır peyğəmbərlərdən çörək istəmişlər (5, 144).

Deyirlər ki, (haqqında Quranda söhbət gedən) qaya Şarvan qayası, dəniz Gilan dənizi, kənd Bacrəvan kəndi (Musa peyğəmbərin ə.s.) rast gəldiyi xidmətçi oğlanın onu öldürdüyü kənd isə Cizan kəndidir (5, 169).

Yaqut Bab əl-Əbvabda Xəmaşira adlanan azad adamların yaşadığı çoxlu azad kəndlərin, əhalisi sıx olan rustaqın olduğunu yazır, lakin müəllif ayrı-ayrılıqda həmin kəndlərin adlarını çəkmir və onlar haqqında məlumat vermir (5, 137).

Yaqut əl-Həməvi Ar-Ras çayı haqqında məlumatında X əsr coğrafiyaşünas səyyahı Əbu Duləfə istinad edib yazır: "Ar-Rass çayı (en dairəsinə görə) dənizin sahilinədək, uzunluğa görə Bərzənddən Bərdəyədək sahəni tutub, Balasacan düzünə çıxır. Varsan və Beyləqan şəhərləri bu düzdədir. Bu düzdə beş min xaraba kənd vardır. Halbuki Onların (evlərinin) divarları və binalarının bəziləri özülü möhkəm olduğundan dağılmamışdır. Deyirlər ki, həmin kəndlər Allah-taalanın "Quran"da zikr etdiyi əshab ər-rassın olmuşdur. Yaqut əl-Həməvi "Muğan" məqaləsində bu vilayətin çoxlu kəndləri olduğunu qeyd

edir, Savalan dağında, Urmiya gölündəki adada bir neçə kəndin yerləşməsi haqqında məlumat verir (5, 70).

Yaqut əl-Həməvi Coğrafi lüğətinin I cildində Bərəndəq, II cildində Hamis kəndlərinin adını çəkir və yazır: "Bərəndəq Azərbaycanda Qəzvinlə Xalxal arasında böyük kənddir (5, 155).

Hamis-Azərbaycanın Qəzvin tərəfdən Xalxal yaxınlığındakı kənddir (5, 159).

Yaqut əl-Həməvi lüğətinin III cildində Azərbaycanda aşağıdakı kənd yaşayış məntəqələrinin adlarını çəkir və onların bəziləri haqqında maraqlı məlumat verir:

"Sincabaz-Azərbaycanın Xalxal nahiyəsində kənddir. O, vadədə yerləşir və minarəsi var. Mən buranı görmüşəm. Buranın əhalisi buranı Sənkəvaz adlandırır, yazıda isə onu Sincəbaz yazır".

"Sincal-Ərməniyyədə, başqa məlumatlara görə Azərbaycanda kənddir. Onun haqqında ət-Şammax öz əsərində xatırlayır".

"Sincan-Bab əl-Əbvabda kənddir" (5, 167).

Yaqut əl-Həməvi lüğətinin IV cildində Azərbaycanda aşağıdakı kənd yaşayış məntəqələrinin adlarını çəkir və onların bəziləri haqqında maraqlı məlumat verir:

"Farfaqabad–Urmiyanın kəndlərindən biridir".

"Karr–Azərbaycanda kənddir".

"Küzekunan–Azərbaycanda Təbriz nahiyəsində böyük bir kənddir. Onunla Təbriz arasında məsafə iki mərhələdir. "Küze düzəldənlərdir". Oradan Urmiya gölü görünür. Mən buranı görmüşəm" (5, 176-178).

Yaqut əl-Həməvi lüğətinin V cildində Azərbaycanda aşağıdakı kənd yaşayış məntəqələrinin adlarını çəkir və onların bəziləri haqqında maraqlı məlumat verir:

"Mart–Urmiyadan bir mərhələ aralı, Təbriz yolu üzərində çoxlu bağları olan böyük kənddir. Adamlarında birlik və şücaət var".

"Muşil–Azərbaycanda kənddir".

"Varan–Təbrizdən bir fərsəx aralıda yerləşən kəndlərdəndir" (5, 180-183).

Yaqut əl-Həməvinin məlumatları Azərbaycan kəndlərinin coğrafi mövqeyini öyrənilməsi baxımıdan çox qiymətlidir. Həmçinin biz Yaqut əl-Həməvinin məlumatından Azərbaycanın orta əsr kəndlərində əkinçilik və maldarlıqla yanaşı bağçılığın, sənətkarlıqda isə dulusçuluğun inkişaf etdiyinin şahidi oluruq. IX-XI əsrlərdə Azərbaycanda kənd təsərrufatının əsas sahələrindən birinin bağçılıq olduğunu yazan M.X.Şərifli Orta əsr ərəb mənbələrinə istinad edərək burada dunyanın başqa yerlərində olmayan bir sıra meyvələrin: şabalıd, zoğal, üzüm, armud, sarı ərik, şaftalı, gilas, alma, incir, heyva, nar, qoz, fındıq, gavalı, alça, tut və s.meyvələrin yetişdirildiyini yazır (2, 263).

Orta əsr ərəb coğrafiyaşünas səyyahların əsərlərində IX-XII əsr kəndləri, kənd əhalisinin dini görüşləri, təsərrufat həyatı, kəndlərin coğrafi mövqeyi və s. haqqında maraqlı məlumatlar olmasına baxmayaraq, bu məlumatlar ardıcıl, əhatəli deyil, çox azdır. IX-XII əsr kənd yaşayış yerləri barəsində daha ətraflı,

ardıcıl məlumat əldə etmək üçün bu yerlərdə geniş arxeoloji qazıntı işlərinin aparılmasına ehtiyac vardır.

## ƏDƏBİYYAT


1. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. Bakı: Элм, 1974, 320 *s*.
2. Şərifli M.X. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: Элм, 1978, 175 *s*.
3. Cavadov Q.C. Əkinçilik mədəniyyətinin sorağı ilə. Bakı: *Maarif*, 1990, 200 *s*.
4. Bunyadov T.Ə. Azərbaycanda əkinçiliyin tarixinə dair. Bakı: Элм, 1964, 447 *s*.
5. Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı: *Maarif*, 1999, *282 s.*
6. *Azərbaycan arxeologiyası.* 6 *cilddə,* VI c. *Bakı: Şərq-Qərb, 2008, 632 s.*


## АЗЕРБАЙДЖАНСКИЕ ДЕРЕВНИ В ПРОИЗВЕДЕНИЯХ АРАБСКИХ ГЕОГРАФОВ-ПУТЕШЕСТВЕННИКОВ IX-XII ВЕКОВ


**М.ДЖ.БАЙРАМОВ**


### РЕЗЮМЕ


В статье собраны и анализированы сведения об азербайджанских деревнях из произведений арабских географов-путешественников. Выявлены результаты топографии азербайджанских деревень средневековья, хозяйственная деятельность населения, быт и религиозные мировоззрения. Сведения арабских географов лаконичны и непоследовательны. Несмотря на это, эти сведения имеют огромное значение в изучении азербайджанских деревень средневековья.



**Ключевые слова:** Азербайджан, средневековый, сельское поселение, сельское население, арабоязычные авторы


## AZERBAIJAN VILLAGES IN THE WORKS OF THE IX-XII CENTURIES ARABIAN GEOGRAPHER TRAVELERS


**M.J.BAYRAMOV**


### SUMMARY


The article analyzes information about Azerbaijan villages of the IX-XII centuries in the works of Arabian geographer travelers. The results of the topography, population, economical activity, life and religious views of the Middle Ages villages are presented. Although information of Arabian geographers is laconic and irregular, it has scientific importance in the study of medieval villages.



**Key words:** Azerbaijan, medieval, rural settlement, rural population, Arabic sources